# Muxtar Babayev: Azərbaycan region və digər neft-qaz ölkələri üçün örnək olacaq

"Düşünürəm ki, Azərbaycan COP29-a uğurla ev sahibliyi edəcək".

AZƏRTAC xəbər verir ki, bunu COP29-un baş qərargahında keçirilən ilk mətbuat konfransında COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev deyib.

"Bu gün Azərbaycanın hədəflədiyi yaşıl artım proqramları və icra olunmuş layihələr göstərir ki, ölkə və cəmiyyət olaraq biz bu baxımdan kifayət qədər təcrübəyə sahibik.

Azərbaycan region və eləcə də digər neft-qaz ölkələri üçün də örnək olacaq. Ona görə ki, Azərbaycanda qəbul olunmuş proqramlar, 2030-cu ilə qədər hədəflənmiş 30 faizə qədər alternativ enerji mənbələrinin yaradılması, yaşıl artımla bağlı proqramların icrası və digər təcrübələrimizi də ölkələrlə bölüşməyimiz üçün COP29 tədbiri yaxşı bir fürsət olacaq", - deyə o qeyd edib.

**AZƏRTAC**
**2024, 15 aprel**